# TARAS
# ŞEVCENQO
# QOBZAR



*Qaвьoj və titullarьnь rəssam*
*L. QNIT cəkmişdir*



Т. Г. ШЕВЧЕНКО

# КОБЗАРЬ

БАКУ
ДЕРЖАВНЕ ВИДАВНИЦТВО
АЗЕРБАЙДЖАНА
„АЗЕРНЕШР" 1934

TARAS
ŞEVÇENQO

# QOBZAR

AZƏRNƏŞR BAKЬ 1934 IL

Mytərçimləri:
Redaqtoru: *M. Arif*
Texredaqtoru: *Z. Aqajev*
Buraqbçbsb: *Hysnijjə Zejnallb*

# TARAS ŞEVCENQO.

I.

Kecən əsrin məşhur Uqrajna şairi Taras Qriqorjevic Şevcenqonun həjat və jaradbçblbqb—bytyn feodal-qrepostnojluq sistemi, mylkədar zulumu, kəlisa və rus carizminin mystəmləkə sijasəti əlejhinə cevrilmiş amansbz bir taqsbrnamadbr.

Taras Şevcenqo elə bir zamanda mejdana cbqmbşdbr ki, rus feodal-qrepostnojluq sistemi icərisinə soqulan qapitalist mynasəbətləri Uqrajna qrepostnoj kəntlilərinin vəzijjətini daha da aqbrlaşdbrbrdb. XIX əsrin birinçi jarbsbnda bir tərəfdən jerli mylkədarlar (panlar), digər tərəfdən başqa millətlərin mylkədarlarb Uqrajna kəntlilərini, sankb daha jbrtbçb bir şəkildə istismar etmək mysabəqəsinə girişmişdilər. Mylkədarlarbn zulmu və amansbz istismarb jetməjirmiş kibi, Uqrajna kəntlilərinin arqasbndakb aqbr jyk myxtəlif devlət

vergilərilə daha da aqьrlaşьr və çəkilməz bir hala gəlirdi. Bu zamanlar, qrepostnojluqun kəsginləşməsi və azqьnlaşmasь prosesilə barabar, Uqrajna əməkci kəntlilərinin bu zulma və vəhşi istismara qarşь isjanlar və qijamlarla çavab verməsilə barabar əlkədə başqa bir hadisə də baş verirdi. Bu hadisə Uqrajna kəntlərindəki daxili təbəqələşmə prosesi idi. Feodalizmin qalьn və aqьr sytunlarь laxlamaqa yz qojur, əlkədə daxili bazar genişlənir, sənaje' artьrdь. Kəntlilərdə başlajan təbəqələşmə, varlь və joqsul adlь iki zidd mənafeə sahib olan zymrəni mejdana cьqarьrdь. Qolçomaq, içarədar və bu kibi varlь kəntlilər qrepostnojluqdan azad olur və əzləri javaş-javaş istismarcьlьqa başlajьrdьlar. Muzdur, nəkər və bu kibi joqsul qrepostnoj kəntlilər isə bu şərajitdə daha açь bir həjat jaşamaqa məçbur olurdu.

Iştə Şevçenqo haman bu joqsul kəntli kytlələrinin şairi idi. Bu qrepostnoj şair əz jaradьçьlьqьnda Uqrajna joqsullarьnьn arzь və mejillərini ifadə edir, onlarьn içtimai protestlərindəki qyvvəti, təşəbbyslərindəki zəiflikləri əks etdirirdi.

II

1814-çy ildə anadan olan Taras, Uqrajna qrepostnoj kəntlilərinin aşaqь joqsul—muzdur



təbəqəsindən cьqmьşdьr. Onun tərçymeji halь qrepostnoj bir gənçin façiəsidir. Hələ kiçik jaşlarьndan Taras aqьr əməgin, ehtijaçьn açьsьnь dadmьş, dəjylmyş, səjylmyş, aç və joqsul bir həjat jaşamьşdьr. 8 jaşlarьnda ata və anasь əldykdən sonra Şevçenqo bir keşişin janьnda nəkər olmuş, daha sonra bir mylkədara muzdurluq etmiş və bu surətlə bir-bir həjatьn açьlarьnь və ələmlərini dadmьşdьr.

Şevçenqo, nəkərcilik illərində, iş arasь həm savad əjrənmiş və həm də rəssamlьqa həvəs gəstərmişdi. Gənç Tarasьn rəssamlьq iste'dadьndan qazanç gətyrmək fikrinə dyşən mylkədar Engelhart əz nəkəri Tarasь Peterburqda bir bojaqcьja «içarəjə» vermişdi.

Lakin təsadyfən rəssam Soşşenqo və Brjullovla tanьş olan Şevçenqo nəkərcilikdən xilas olmaqa və sənətkarlar myhitinə dyşməgə myvəffəq olmuşdu. Rəssam Brjullov məşhur rus şairi Žuqovskinin jardьmь ilə Tarasь mylkədar Enqelhartdan 2500 manata almьş və azad etmişdi. Gənç Taras əzyndə rəssamlьq qabilijjəti hiss etdigindən rəssamlьq aqademjasьna girmiş və Brjullovun ən sevimli bir şejirdi olaraq oranь bitirmişdi.

Taras jalьnьz rəssam dejildi, ejni zamanda o şe'ir jazmaqla da məşqul olardь. Aqademjanь bitirdikdən sonra Şevçenqonun həja-

tьnda məs'ud dəqiqələr başlamьşdь. O Peterburqun mədəni çəmiijətinə daxil olmuş, bir rəssam və bir şair kibi tanьnmaqa və inkişaf etməgə yz qojmuşdu. 1840-çь ildən başlajaraq, «Qobzar», «Qajdamaqi», «Qaterina» kibi əsərləri nəşr edilmiş, bu əsərlər sajəsində Şevcenqonun şəhrəti getdikçə artmьşdь.

1845-çi ildə Şevcenqonun əz doqma jurdu olan Uqrajnaja qajьtdьqьnь gəryryz. Uqrajna zijalьlarьnьn liberal və tərəqqipərvər hissəsi Şevcenqonu bəjyk bir hərmətlə qarşьlajьr. Kəntli azadlьqь və bə'zi sijasi azadlьq xuljasьnda olan bu adamlar, Şevcenqonu bir kəntli şairi, bir xalq qahramanь kibi qarşьlamьşdьlar. Lakin bu jaqьnlьq coq cəkmədi. Uqrajna mylkədarlarь ilə Şevcenqo arasьndakь kəsgin sьnfi ziddijjət bu jaqьnlьqь pozdu.

1846—47-çi illərdə Uqrajnada (Kijevdə) «Qirill-Mefodi qardaşlьqь» adlь bir çəmijjət vardь. Çəmijjətin proqramьndakь əsas maddələr qrepostnojluqun, zymrəvi ajrьlьqlarьn aradan qaldьrьlmasьndan və slavjanlarьn federativ çymhurijjətini təşkil etməkdən ibarətdi. Gəryldygy kibi bu proqram inqilabi bir proqrama bənzəjir idi, lakin çəmijjət əz taqtiqasьnda opportunistçəsinə hərəkət etdijindən bu proqram təmamilə əz əhəmijjətini itirdi. Çəmijjət inqilabi cьqьşlar japmaqьn və mevçud



quruluşa qarşь cьqmaqьn əlejhinə idi. Proqramьn onunçu maddəsində dejilirdi ki: «Bytyn çəmijjət və eləçə də çəmijjətin ajrь-ajrь yzvləri əz hərəkətlərini Inçilin məhəbbət və səbr haqqьndakь qanunlarь ilə ujuşdurmalьdьrlar».

Şevcenqo da bu çəmijjətə daxildi. Feodal-qrepostnoj mynasəbətləri əlejhinə protest həvəsi, myvəqqəti bir zaman ycyn liberallarь və kəntli-demoqratlarьnь birləşdirmişdi. Lakin qapitalizmin sonrakь syr'ətli inkişafь bu çəmijjət yzvlərinin məfkurələrindəki ziddijjətləri mejdana cьqardь. Bytyn Rusjada olduqu kibi Uqrajna qarşьsьnda da reforma və ja inqilab məsələsi dururdu ki, bu da qapitalizmin hansь jolla inkişaf etməsi məsələsi idi. Leninin «Amerika jolu» adlandьrdьqь ikinçi jol, Uqrajna kibi Rus imperjasьnьn hərbi feodal təzjiqi altьnda inləjən bir mystəmləkə ycyn, ejni zamanda bir milli azadlьq jolu idi. Birinçi jolun, «Prusja» jolunun tərəfdarlarь olan Uqrajna burzua ideoloqlarь isə—hakim rus millətciligini mydafəə edir və bu myrtəçe' fikri miskin «Bəjyk Uqrajna» səzlərilə pərdələjirdilər.

Şevcenqo kibi joqsul kəntli şairi ilə liberal-mylkədar jazьçьsь olan Qulişi myvəqqəti olaraq «Qirill-Mefodi qardaşlьqь» çəmijjətində birləşdirən və sonra biri-birinə qarşь qojan şə-

rajit də haman bu iki jol ətrafьndakь mybarəzələrlə əlaqədardь.

Şevcenqo bu çəmijjətin sol, inqьlabcь-demoqratik bir qoluna mənsub idi. Odur ki, 1847-çi ildə bu çəmijjət zandarma şefi Benqendorf tərəfindən darbadaqьn edildikdə ən aqьr çəzanь da Taras Şevcenqo cəkdi. Qrepostnojluq zulmu və doqma jurdu olan Uqrajnanьn car mytləqijjəti pənçəsində inləməsi əlejhinə mybarəzə aparan şair, 10 il vətənindən syrgyn edildi, əvvəlçə Orenburqa, daha sonra Zaqaspi çöllərinə gəndərildi, şəkil cəkmək və şeir jazmaq ona qədəqən edildi.

On il syrgyn həjatь jaşadьqdan sonra Şevcenqo xəstə və jorqun bir halda qajьtdь. lakin azadlьqda jaşamaq ona myjəssər olmadь. 1861-çi ildə fevralьn sonlarьnda bərk xəstələnib əldy və Uqrajnaja gətirilərək Qanev şəhəri janьnda, Dneprin sahilində basdьrьldь.

## III

Şevcenqonun əsərləri—qrepostnojluq hyququ və car Rusjasьnьn milli sijasəti təzjiqi altьnda jaşajan joqsul Uqrajna kəntlilərinin tərçymanь idi. Onun əz əsərlərini «Qobzar»[1] adlandьrmasь da təsadyfi dejildir. Şevcenqo

1 Qobzar—Uqrajnalьlarça el (saz) aşiqi deməkdir; qobzar—saza bənzər bir calqь alətidir.



əz jaradьçьlьqь ycyn şirəni xalq ədəbijjatьndan, naqьllardan, əfsanələrdən, xalq mahnьlarьndan alьrdь.

Şevcenqo, ədəbijjatda əz sərbəst sьnfi səsilə birdən-birə ətməgə başlamamьşdь. Birinçi devrdə onun jaradьçьlьqь jabançь dvorjan-burzua ədəbijjatь tə'siri altьnda idi. Ilk əsərlərində qazaq-qetman Uqrajnasьnь idealize etmək ynsyrləri olduqu kibi, qrepostnojluq əlejhinə protesti də coq zəifdi. Bu devrdə onun jaradьçьlьqьnьn əsas mevzuunu romantik, abstraqt «xalq» təşkil edirdi. Lakin hələ bu devrdə Şevcenqo əz xəstə romantizmini rədd etmək, Uqrajna xalqь içərisində iki xalq, iki millət jaşadьqьnь dərk etmək, daxili sьnfi ziddijjəti gərmək jolu ilə inkişaf etdi.

Mylkədar zulmu əlejhinə isjan edən, azadlьq ycyn cьrpьşan kytlə, Şevcenqo əsərlərinin baş qahramanь olmaqa başladь.

Milli romantiqadan başlajan Şevcenqo əz jaradьçьlьqь və məfkurəvi inkişafь nəticəsində sьnfi mybarəzə temalarьna kecir. Jaradьçьlьqьnьn əsas mevzuu qrepostnoj kəntlinin açьnaçaq halьnь təsvir etməkdən ibarət olur. Bu həjatь Şevcenqo əzy bir qrepostnoj olaraq jaşamьşdь, bu onun doqma həjatь idi.

Şevcenqo zamanьnda içtimai-iqtisadi şərajit tə'sirilə bə'zi jazьcьlar (Qolsov, Turgenev,

Qotljarevski və başqalarь) kəntli həjatьndan jazmaqa başlamьşdьlar. Lakin, Şevcenqonun əsərləri juqarьdakь jazьcьlarьn əsərlərindən coq fərqli idi. Dvorjan jazьcьlar (Turgenev) məhkum kəntlinin halьna jalьnьz açьjьr, ona juqarьdan baqьr, onun өz mənafeini ifadə etməjirdilər. Şevcenqo isə tam mə'nasь ilə joqsul və məhkum kəntlilərin şairi və ideoloqu idi. Ta Qoqolun «Diqanqi janьndakь xutor aqşamlarь» hekajəsindən başlajaraq dvorjan ədəbijjatьnьn təhrif etdigi, bojadьqь, «çənnətin bir guşəsi» kibi təsvir etdigi Uqrajnanь Şevcenqo bytyn cьplaqlьqь ilə mejdana qojur. Muzdur--joqsul Uqrajnasьnь dvorjan Uqrajnasьna qarşь qojaraq Uqrajna kəntli həjatьnь təsvir edən liberal-humanist dvorjan jazьcьlarьna kəsgin protest edir:

Ej-aqalar, insanlarь qaplajan,
Fəlakəti bilsejdiniz, o zaman,
Mərsijəni atardьnьz kənara,
Rəbbi tə'rif etməzdiniz nahaqdan,
Gylməzdiniz təkdygymyz jaşlara...
Bilməjirəm neçə olur, ьraqdan,
Meşədəki daxmaçьqa, izbəjə
Verirsiniz çənnət adь siz nejə?..

***

Mən o çənnətdə çəhənnəm gərdym,
Açьdan doqma bir ələm gərdym,



Ehtijaç, zylmy-əsarət məhlik,
Aqьr işlər, qara talesizlik...

Şair Uqrajna joqsul kəntlilərinin çəhənnəm həjatьnь çənnət dejə tə'rif edənlərə qarşь cьqьşьndan sonra, insanlarьn çəkdigi zylmy və aqьtdьqь gөz jaşlarьnь sajьr, kəntli daxmasьna baş soqmajan bir bəla və mysibət qalmadьqьnь gөstərir:

...Geçə-gyndyz gөz jaşlarь tөkdygym
O daxmada qəmlər jaşar jьqьnla.
Min bir bəla hөkym syrmyş daxmada.

Joqsul kəntli daxmasьnda hөkym syrən bu bəlalarьn birinçisi—q r e p o s t n o j - l u q idi.

Şevcenqo өz vətəni olan Uqrajnanь sevir, o Dneprin gөzəlliginə hejrandьr, lakin onun şe'rlərindəki təbiət gөzəlligi kəntlilərin jaşadьqь aqьr həjat mənzərələrini daha cьplaq bir şəkildə gөstərməgə xidmət edir. Şevcenqonun Uqrajnasь өz milli xysusijjətini itirməjir, lakin o Uqrajnanь təsvir edərkən oradakь sьnfi ziddijjəti gөryr. «Aqalarьn uşaqlarьna isti paltar gejdirmək ycyn colaq bir diləncinin ajaqьndan jamaqlь tumanь cьqarьrlar. Vergi ycyn qadьnь dөjyrlər, təkçə oqlunu saldat aparьrlar. Odur, divarьn dibində bir kөrpə uşaq atьlmьş, açьndan şişmişdir, indiçə ələr, kөrpənin ana-

sь isə cəldə aqalarьn taxьlьnь bicir» («Juqu» şeirində)—bytyn bunlarь Şevcenqo gəryr, belə «çənnətin» ic yzyny acьr, istismarьn və aqьr əməgin əsl mə'nasьnь mejdana qojur.

Şevcenqo içtimai barabarsьzlьq məsələsini də bu şəkildə izah edir. O mevçud quruluş şərajitində myt'i qul halьna gətirilmiş hyquqsuz, çahil, məzlum qadьnlarь mydafəəjə qalqьşьr:

Ah gejərcinlərim, həmşirələrim,
Sizi andьqça sьzьldar çijərim...
Başqa jerlərdə sizin şamy-səhər
Θmrynyz əllərə baqmaqla kecər...
Yzynyz gylməjəçəkdir bişək,
Bu məişət sizi məhv ejləjəçək...

Şair bu qadьn hyquqsuzluqunun səbəbini bilir və şejirlərinin birisində dejir ki: «Nə qədər kənt və kəntdə pan (mylkədar) var, qьzlar θz gθzəlligini və şərəfini hifz edə bilməjəçəklər».

Şevcenqo qadьn məsələsində humanist və burzua feministi dejildir. Bu məsələ onun ycyn sьnfi bir məsələdir, o bu məsələdə də ən əvvəl ymumi bəla olan panlara atəş acьr. O hətta ən lirik parcalarьn da belə o xysusijjətini gəstərir. «Vedma» adlь şeirində qьzlara dejir ki: «hər kəslə əjlənirsiniz, əgləniniz, hər kəslə sevişirsiniz, sevişiniz, joqsullarla olsa daha jaxşь lakin sevimli baçьlarьm, panlardan qacьnьz...»



İkinçi bəla—mytləqijjət idi.

Uqrajna kəntlisi Rusja mytləqijjətinin mystəmləkə sijasəti şərajitində iki qatlь bir təzjiq altьnda inləjirdi. Uqrajna kəntlisinə bir tərəfdən Polşa panlarь, o biri tərəfdən isə rus mylkədarlarь təzjiq edirlərdi. Buna gərədir ki, Uqrajna kəntlisinin ymumijjətlə mylkədar əlejhinə apardьqь mybarəzə formalarь, Uqrajna mylkədar-qrepostnojluq sistemini ihatə edən milli antaqonizm ilə daha da kəsginləşirdi. Rusja mytləqijjətinin soјqunçu, istilacь sijasətini ifşa edən Şevcenqonun əsərləri sьnfi nifrət və inqilabi internasionalizm ilə doludur. Rusja mytləqijjətinin mystəmləkə sjasəti—şairin dəfələrlə bəhs etdigi bir mevzu'dur. Şevcenqo jaradьçьlьqьnьn internasional əhəmijjəti bu məsələdə daha ajdьn mejdana cьqьr. Şevcenqonu sьrf milli bir Uqrajna şairi adlandьranlar, onun jalьnьz doqma Uqrajna azadlьqь uqurunda mybarəzə apardьqьnь səjləjənlər—şairə iftira və bəhtan atьrlar. Şevcenqonun milli dyşmancьlьqь—sьnfi dyşmancьlьqdьr. O jalьnьz Uqrajnanьn və Uqrajna kəntlisinin milli təzjiqindən bəhs etməjir. Θ Rusja ordusu ajaqь altьnda inləjən Qafqas xalqlarьna ən ja-

ınьqlь bir şeiri ilə myraçəət edir. Azadlьq uqrunda carpьşan qafqaslьlara belə dejir:

Tanrь tərəfindən unudulmajan,
Bøjyk ijitlərə şərəf və isjan,
Carpьşьn,—siz qalib gələçəksiniz,
Tanrь jardьmilə gyləçəksiniz,
Qyvvət, qalibijjət arqanьzdadьr,
Haqq ilə hyrrijjət arqanьzdadьr!

Şevcenqo jalьnьz Uqrajnanьn halьna janmajьr, o jalьnьz «bøjyk xalqь» dyşynmәjir, bəlkə rus mylkədarlarьnьn və rus carьnьn qamcьsь altьnda inləjən başqa xalqlarь da gøryr. O gøryr ki, əsl dyşman, kəlisa və car tərəfindən qanьna fətva verilən və «basurman» adь ilə təhqir edilən xalq dejil, bəlkə əsl dyşman ymumi dyşmandьr—aqa, mylkədar, pan və cardьr. O bilir ki:

Bol-bol aqan qanlar bu gøz jaşlarь,
Kafidir boqmaqa mystəbid carь...

Bunlarь gøryb bildigi ycyndyr ki, Şevcenqo bir sьra əsərlərində xysusən, «Qafqas» və «Lehlərə» adlь əsərlərində bytyn ølkələrin məhkum xalqlarьnьn birləşməsi fikrini irəli syryr. «Bizi (jə'ni məzlum millətləri M. A.) hiləgər keşişlər və dyşmanьmьz olan varlьlar dalaşdьrdь və bir-birimizdən ajьrdь»—dejir.



Ycynçy bəla—rəsmi kəlisa idi.

Doqrudur Şevcenqoda «tanrь», «rəbb», «allahьn şərəfi» və bu kibi dini søzlərə coq təsadyf ediriz, doqrudur Şevcenqo myhitdəki haqsьzlьqlardan xilas olmaq ycyn tez-tez yzyny gøjlərə cevirir, oradan kømək və mərhəmət gøzləjir. Lakin unutmamalьjьz ki, bu allahcьlьq dindarlьqdan və mevhumatcьlьqdan coq uzaqdьr. Şevcenqonun dinə və kəlisaja qarşь mynasəbətini bir qədər dərindən tədqiq etmiş olsaq—bu «allah», «rəbb» søzləri altьnda təmamilə başqa məfhumlarьn gizlənmiş olduqunu gørəriz. Orasь da doqrudur ki, Şevcenqo bizim bu gyn bildigimiz mə'nada bir allahsьz və ateist dejildir, lakin Şevcenqo rəsmi kəlisanьn əsl sьnfi mahijjətini gøzəlçə anlajьr, carizmlə kəlisanьn əlbir olduqunu bilir, keşişin aqalara və padşaha xidmət etdigini gøryr, bunun ycyn də Şevcenqo kəlisa, onun mevhumatь, xyrafatь və iki yzlylygy ilə mybarəzə aparьr. O, bir coq əsərlərində dinin, kəlisanьn ujutucu, təsəlli veriçi dua və və'zlərinə Uqrajnanьn qorqunç, qara, istismarla dolu olan həqiqətini qarşь qojur.

Şevcenqonun coq-coq təkrar etdigi «tanrь»—əsrlərdən bəri əsarətdə qalan avam kəntlinin ən jyksək idealьdьr. Şevecnqonun «tanrь»sь—içtimai həqiqətdir. Şevcenqonun «çan-

nət»i—gədasьz və xansьz, jeni içtimai bir quruluşdur.

Şevcenqonun «çəhənnəm»i—kələlik ysulu, carizm, mylkədar və keşişdir.

Şevcenqo ez əsərlərində bu çəhənnəmi bytyn çьplaqlьqь ilə təsvir etdigi kibi, jarьnkь çənnəti və jeni quruluşu da tərənnym edir. «Arşimed və Qalilej» adlь əsərində: «jeniləşmiş dynjada dyşman və çəllad olmajaçaq, orada insanlar olaçaq, bir-birilə ana və oqul kibi jaşajan insanlar»—dejir.

Belə bir «çənnət»in qurulaçaqьna Şevcenqo bytyn varlьqь ilə inanьrdь. O ez vəsijjətnamasьnda («Vəsijjət» adlь şeirində) bu gyny qabaqçadan germyş kibi, ezynyn orada xatьrlanmasьnь arzьlajaraq:

Qurulan o azad, jeni dynjada,
Bejyk ajilədə, gələrək dilə,
Məni unutmajьn, siz salьn jada,
Xejirxah sezlərlə, həzin sezlərlə!—

dejir.

Sez joq ki, Şevcenqo o zamanlar proletar diqtaturasь və sosializm quruluşu ideasьnь təbliq etməjirdi və edə də bilməzdi. O carla, mylkədarla və kəlisa ilə mybarəzədə bytyn əməkcilərin əlbir olaraq iştirak etməsini təbliq edərkən. gələçək çəmijjəti: xalqlarьn qardaşlьqь, azadlьq, həqiqət və azad əmək əsasьnda quruluçaq bir çəmijjət kibi təsəvvyr edirdi. Mə'lum olduqu kibi kəntli ideologijasь, nə qədər joqsul kəntli olursa-olsun, xьrda xysusijjətcilik ruhu daşьjьr, «ez daxmam, ez topraqьm olsun» —dejə arzьlar bəsləjir. Bu ruh Şevcenqoja da jabançь dejildi. O joqsul kəntlilərin azad jaşamalarьnь, azad əkib-biçmələrini, ez daxmalarьnda azad və məs'ud jaşamalarьnь istəjirdi. Başqa çyrə ola da bilməzdi, ez zamanьna gerə bu arzь və istəklər ən inqilabi və ən qabaqçьl bir ideja idi. Şevcenqonun dililə—qrepostnojluq devrinin inqilabi əhvali-ruhijə daşьjan joqsul kəntliləri danьşьrdь. Bu e'tibarla Şevcenqo sosialist inqilabьnьn ilk çarçьlarьndan idi.

## IV

Taras Şevcenqonun Uqrajna içtimai və ədəbi həjatьnda bejyk rolu və əhəmijjəti olmuşdur. Hər bir əsərində hakimlərə qarşь isjana çaqьran, istismarcь ysuli-idarəni ifşa edən, car və mylkədar hakimijjətinin inqilabi bir jolla devrilməsini tevsijə edən, nihajət inqьlabьn qalibijjətinə bejyk umudlar bəsləjən Şevcenqonun ətrafьnda bejyk mybarəzələr getmişdir. Illərdən bəri Şevcenqoja doqru bir coq myxtəlif əllər uzanmьşdьr. Inqьlabi hərəkatь zəiflətmək, pro-

letar diqtaturasьna xajьn cьqmaq, Uqrajna millətcilijini qyvvətləndirmək kibi məqsədlər uqrunda Şevcenqodan istifadə etmək təşəbbysləri olmuşdur. Qəribə burasьdьr ki, bu gyn belə «azad Uqrajna» uqurunda aqьz kөpykləndirən əks-inqьlabcь Uqrajna burzuazijasь Şevcenqonun jaqasьndan əl gөtyrməjir. Şevcenqonu milli bir Uqrajna şairi kibi irəri syrərək, onun jaradьçьlьqьndakь ən qijmətli inqьlabi çihətləri ataraq, «bөjyk xalqьn bөjyk oqlunun», «өz doqma Uqrajnanьzь seviniz» şiarьna rəvaç verir, Şevcenqodan өz murdar məqsədləri ycyn istifadə etməgə caьşьrlar. Şevcenqonun jaradьçьlьqь ilə tanьş olarkən gөrdyk ki, o qapitalizmə və burzuazijaja dərin bir nifrət bəsləjir. Şevcenqo panlarla, dinlə, rəsmi kəlisa ilə mybarəzə aparьr. Şevcenqo proletarlaşmaqda olan kəndin joqsul təbəqələrinin idejasь uqurunda, o zamanlar hələ şair ycyn ajdьn olmasa da sosializm çəmijjəti idejasь uqrunda carpьşьr. Belə bir vəzijjətdə Şevcenqonun jaradьçьlьqь əks-inkilabcь burzuazija tərəfindən proletar diqtaturasь, şuralar Uqrajnasь əlejhinə səfərbərligə alьnьr. Çan verməkdə olan burzuazija belə azqьn əks-inqьlabi cьqьşlara əl atьr!

Sosializm quran proletariat, Şevcenqonu dyşmana verməz, Şevcenqo jaradьçьlьqьnьn



həqiqi varisi proletariatdьr. Şevcenqonun arzu və istəkləri jalьnьz proletar diqtaturasь ilə өz jerinə catdь.

Imdi Şuralar Ittifaqь proletariatь o bөjyk şairin vəsijjətinə əməl edərək onu өz bөjyk ailəsində xatьrlajьr, onu hөrmətlə jad edir. Proletariat Şevcenqonun ədəbi-sijasi irsi uqrunda, onun jaradьçьlьqьnьn doqru və dyzgyn anlaşьlmasь uqrunda mybarəzə edir. Uqrajna proletaiatь qardaş çymhurijjətlərin proletariatь ilə birlikdə burzua-mylkədar qalqьlarь əlejhinə mybarəzə apararaq, Şevcenqoja isnad edilən millətcilik nəzərijjələrinə amansьz bir zərbə endirir, internasionalizm bajraqь altьnda kələlikdən—azad inkişafa, qapitalizmdən—sosializmə doqru jyryjyr.

*M. Arif.*

---

# QOBZAR

## IŞCI QADЬN

*PROLOQ*

Səhər zymryd, geniş çөl
Dumanlara byryndy.
Bir qurqanьn[1] ystyndə
Bir xəjalət gөryndy.

*

Bu xəjalət—bir qadьn,
Inçə bel bir qadьndь.
Bir şej basьb baqrьna,
Dumana belə dedi:

*

— Əzib dərdli başьmь,
Ej duman, gөm topraqa!
Alьb mənim daşьmь
Fьrladaraq uzaqa,

[1] Qurqan—təpə

*

Qurtar məni təhmətdən,
Bu uqursuz qismətdən.
Joq, əzmə gəzym duman,
Bu cəldə məni jalnьz
Gizlət əgər baçarsan.
Bulunmasьn hec bir iz,
Qurtar məni lə'nətdən
Bu uqursuz qismətdən.
Nə jalnьz, nə əjsyzym
Anam, babam saq mənim,
Bir oqlum da var gəzym,
Gəryrsən tək dejilim...

*

«Çanьm, çijərim oqul,
Səni səvərim oqul,
Cəkilmədin sən suja,
Vaqtsьz gəldin dynjaja.
Ana bilməz adьnь.
Adьnь, muradьnь...
Mən joqsul da dejildim...
Oqlum məni qьnama.
Carpьnça bejlə qəlbim,
Jalvararam allaha.
Tykənməz gəz jaşьmla,
Bu bəlalь başьmla,



Hyzuruna gedərəm,
Sənə dua edərəm.

*

Qadьn jollandь getdi, hьcqьran nəfəsilə,
Dumanlara byryndy, cəllərdən aqdь getdi.
Durmajan gəz jaşilə, ditrəjişli səsilə
Dul qadьn mahnьsьnь, javaş tərənnym etdi.

*

Bu dul qadьn Tunaja,[1] cьqmьş imiş bir geçə,
Tunajda coçuqlarь gəmmyş imiş gizliçə...

*

«Kecmişlərdə bir cəldə
Tək bir məzar var imiş.
Bir gənç qadьn buraja,
Gəzməgə cьqar imiş.
Gəzib jaqьn, uzaqь
Aramьş kəsgin aqь[2]
Arajьb bulmajьnça,
O dejən olmajьnça,
Bykərək oqullarьnь bir şejə
Oqujaraq, gəlib cьqmьş Tunaja:
— Əzizim nazlь Tunaj,
Səhbətli sazlь Tunaj,

[1] Tunaj—Don cajь.
[2] Aqь—zəhər.

Əjləndir balalarьmь.
Jumuşaq qьzьl qumlar,
Sizə də bir səzym var:
Saqlajьn balalarьmь,
Acьnьz, bələjiniz!
Bəjysyn coçuqlarьm.
Ninnilər səjləjiniz.
Ujusun coçuqlarьm!»



I

Bu əlkədə var idi bir qoçajla bir qarь..
Xilqət ejni topraqdan jaratmьşdь onlarь.
Durqun gəl ystyndəki aqaclьqlara sarь,
Xьrdaça daxmaçьqda jaşardь qoça, qarь.
Jaşьt coçuqlar kibi gəzərlərdi həp qoşa.
Barabar сьqarlardь ormana, daqa daşa.
Hər ikisi ta ilkin, ufaçьq coçuq ikən,
Quzularьn janьnda sevişmişlərdi birdən.
Sevda jaman dərd. dejil, evlənmək ona dava.
Sonra da evlənərək qurmuşlardь jurt, juva.
Ev, dəjirman tikdilər, bir də bir baq saldьlar.
Ev, eşik dyzəltdilər, azdan-coqdan aldьlar.
Arьcьlьq etdilər; az olmazdь ballarь,
Bir səzlə jerindəjdi devlətləri, mallarь,
Durmadan calьşmьşlar, hər şejləri coq idi.
Tale'sizlik bunda ki, coçuqlarь joq idi,
Bu jandan da qapьnь, gəlib-kəsib əzrajil.
Əlymyn bьcaqьna dunjada varmь hajil?
Bu qoçalьq caqьnda, kimləri baqaçaqdь;
Nəvazişlər gəstərib kim ataş jaqaçaqdь?

Əlyncə, kim onlara tədaryk gərəçəkdi,
Kim matəmə əjləşib kim ehsan verəçəkdi?
Bu alьn tərlərilə toplanmьş mylky, malь
Zəhmətlə jьqmьşlardь qarь, qoça olalь,
Kimlər sahiblənəçək? Bir joqsul ucuq evdə.
Coçuq saqlamaq gyçdyr, varь, malь joq evdə.
Lakin bolluq icində sonsuzluqla qoçalmaq,
Jaman dərddir qoçalьq oqulsuz, qьzsьz qalmaq
Coq aqьr bir dərddir bu, varь-halь olana:
Əlsyn jadlar icində, malь getsin talana.

II

Bizim qoça və qarь
Bir gyn bazar gynyndə,
Birgə oturmuşlardь
Evlərinin ənyndə.
Əjinlərində təmiz,
Aq-appaq kəmləkləri,
Baqьrlardь nəş'əsiz
Ьşьq sarmьş hər jeri.
Gəjlər gyzgy tək ajdьn,
Bulut, duman joq idi.
Zavallь qoçalarьn
Dərdlərisə coq idi.

*

Bu çənnət kibi gyndə, qoçalarьn dərdi nə?
Nə ad vermək olardь onlarьn bu dərdinə?
Nə fəlakət yz vermiş; joqsa əski bir kədər:
Onlarьn qolbasьna jenidən saldь nəzər?



Jaxud dynən jenilmiş, uqursuz bir dyşyncə
Bir dehamь uqramьş bu gyn dyşməjən kyncə?
Joqsa jeni bir bəla cəkmyş ьssьz daxmaja.
Bir mysibət şimşəgi başlamьşdьr caqmaja?
Mənim də bildigim joq, nədir onlarьn dərdi,
Bilmədim ki, onlara nə mysibət yz verdi?
Bəlkə hazьrlanmьşlar, o dynjaja səfərə,
Gedən gəlməz dijarьna, varan dənməz jerlərə?
Bu uzaq səfər ycyn varmь jardьm edəçək?
—Nastja quzum, bizi kim dəfn edəçək?
—Allah bilir, get ona ver sualь.
Dyşynyb daşьnmaqdan jorulmuşam mən artьq.
Dyşyndykçə artmaqda qəlbimin də məlalь.
Bir coq illər calьşdьq, mal və devlət topladьq.

Bu mal kimə qalaçaq?
Kim verib kim alaçaq?
Qoçaldьq, baxtsьz olduq..
Nə aradьq nə bulduq?..

—Dajan Nastja, aqlajan var... bir dinlə,
Darvazada... həm caqadьr bu belə...
Baq bir daha... hajdь capьq cьqalьm...
Nə səjlədin?... Jalanmьdьr?.... Baqalьm...

*

Qoça ilə qarь dərhal qalqdьlar,
Haman gedib darvazja baqdьlar
Bu aqlajan bir kərpəjdi, buldular.
Zavallьlar bysbytyn mat qaldьlar.

Gətirdikdə ortaja, həm halь, həm keçmişi,
Bu dynjanьn işləri əçajib bir myəmma.
Təl'in edir oqlunu, evdən qovur bir kişi,
Bir başqasьjsa durmaz, hej jalvarьr allaha,
Təkərək gəz jaşlarь, baş vurur hər bir jerə,
Mum jaqьb nəzr ejləjir myqəddəs təsvirlərə.
Allahdan oqul dilər, istər, bəj, istər joqsul
Nədəndir bə'zən açь, bə'zən şirindir oqul?!

### III

Jьqьldь gəldi dostlar,
Tapdьq suja çəkildi.
Marq qojdular adьnь
Artьq adsьz dejildi.
Bir əldən gəldi, getdi
Kirvələr dəstə-dəstə.
Kim dedi, kim eşitdi
Saqlandь Marq gəz ystə.
Bəjydykçə bizim Marq,
Çəkildi hər bir nazь.
Onuncundu tək ançaq
Qoçalarьn nijazь.
Bu Marq ixtijarlarьn
Dyşməzdi əllərindən.
Jaşlь bəxtijarlarьn
Dyşməzdi dillərindən.
Hətta saqmal inək də
Boqulurdu bəzəkdə,



Dyz bir il başa gəldi,
Marq bəjydy kəkəldi.
Bir gyn bir şirin səzly,
Aq bəniz, qara gəzly,
Gəzəl bir qadьn gəldi,
Gəzəlmijdi? Gəzəldi.
Gəldi bir iş istədi.
Qoça qarьja dedi:
—Nastenqa gəl dutalьm.
—Dutalьm, joqdur halьm.
Doqrudur, Troximusqa,
Coçuq gəlmiş bir jaşa;
Jenə çoq zəhmət istər.
Biz xəstələnsək əgər,
Coçuq qalar kimsəsiz.
Qulluqçu dutmalьjьz.
—Mənim də varьm azdьr,
Kisəmiz də dajazdьr.
Sən bizdə qalaçaqsan.
Səjlə nə alaçaqsan?
Illik durursan, ajlьq?
Səjlə, olsun qolajlьq.
—Siz əzynyz kəsiniz,
Əzynyz bilərsiniz....
— Joq, əmək myqəddəsdir.
Çalьş hesabь kəsdir.
Zəhmətə haq verməjən
Adam olmaz qət'ijjən.

Sən qal bizdə, işlə calьş
Bizə isniş, işə alьş,
Hesabь sonra japarьz.
Bir sozlo: qal, ol bizə qьz
—Olsun.
— Hajdь bujur evə.
Qəbul etdim səvə-səvə.
Səz verildi iş dyzəldi,
Bu qadьna coq xoş gəldi.
Sankь jerini buldu haq,
Jaxud bəjyk haq alaçaq.
Hej calьşьr, capalajar,
Təmizlənər evlə bajьr.
Bataraq bytyn qan-tərə,
Baş cəkirdi hər bir jerə.
Gah həjətdə inək saqьr,
Gah da jьqajьr camaşьr.
Coçuqa ki, olmuş əsir
Yzərində daim əsir.
Nazlandьrьr, bəjydyrdy,
Gəzdən qojmazdь gydyrdy.
Gəstərməzdi hər jetənə,
Elə bil ki, doqma ana.
Hər gyn tər-təmiz jьqardь,
Marq da gyl kibi qoqardь.
Coçuq şьq gejir, sallanьr,
Pənbə janaqlar allanьr.



Gəzəlləşirdi...
... daha da,
Əl calmaqda, ojnamada,
Gəzəl səslə şərqi səjlər,
Oqurdu hər aqşam, səhər,
Ojunçaq japar əlilə,
Əjləndirirdi dililə.
Elə ki, gəlirdi bajram,
Coçuqsuz dutmazdь aranı.
Onu verməzdi hec kəsə,
Bizim qarь qoça isə,
Bu işə şykr edirdilər,
«Bu bir ne'mət!» dejirdilər.
Lakin bilməzlərdi neçə
Juqusuz kecmişdir geçə,
Lə'nət edib taleinə,
Ojaq qalmьş dərdli nənə!
Bunu bilən joqdu əsla.
Marq bir coçuq, o da hala
Anlamazdь nədən daja
Geçə ulduz saja-saja,
Aqlajьrdь gizli, gizli,
Əpər, qoqlar coq sinirli.
Iş icində geçə, gyndyz,
Əzy qalьr aç və susuz,
Nə dinçəlməz nə jatmazdь
Lakin Marqь unutmazdь.

Ah, nə bilir məs'ud coçuq,
Ki, dajanьn dərdi pək coq...
Өzy inlərkən geçələr,
Daja dərhal qacьb gələr,
Tikib ona gəzlərini
Titrək səslə səjlər ninni
Beşigini jьrqalardь.
Həmdy-surə oqujardь.
O otaqdan hər səsini.
Dujardь hər nəfəsini.
Marq sabahlar ojanьrdь,
Oqujurdu, bir quş kibi.
Cьrpьnaraq o Gannaja,
Dil acar, dejərdi «anna!»
Illər və ajlar dolandь,
Marq da bəjydy uzandь.

IV

Bu gyndən illər kecdi, gənyldə iz buraqdь.
Ev bir dərdə uqradь, hədsiz gəz jaşь aqdь.
Bir mysibət yz verdi; o bizim Nastja-nənə
Birdən cьqьb jollandь, axirət səfərinə.
Onsuz tək qaldьqьndan bu vəfasьz dijarda
Jola cьqmaq yzrəjdi, bəlalь ixtijar da,
Fəlakət bir qasьrqa, gəldi dolaşdь, getdi,
Cьqьb getmədən əvvəl, bir coq fənalьq etdi.
Ondan sonra daqlardan enib gəldi səadət
Gəldi bu dərdli jurtda başlandь istirahət.



Marq coqdanbəridir ki, başlamьş calvadarlьq.
Işdə, gyçdə daima gəstərməkdə jararlьq.
Pajьzьn rytubətli, jaqmьrlь geçələri,
Marq evdə joq, cəllərdə acmaqdadьr səhəri.
Qoça bir gyn dyşyndy: «evləndirmək zamanь
Catdь, lakin bu gənçə jaraşasь qьz hanь?»
Sonra məsləhət ycyn caqьrьlьnça o, Ganna,
Hazьrdь elci getsin, şah qьzьnьn janьna.
—Gəlsənə bir soralьm bunu Marqьn əzynə,
Sonra elci dyşəlim birisinin qьzьna.

Marq ilə gəryşdylər,
Gəryşyb soruşdular.

Qoça haman dəqiqə «ələrəm gərməm»—dejə
Əl ysty adam tapdь gəndərdi elcilijə.
Bir az sonra elcilər dəndylər xoş xəbərlə,
Qablarьna qojulan peşkeşlərlə, nələrlə,
Elcilər bəhs edərkən, secdikləri gəzəldən
Dedilər: «səadətdir su icmək elə əldən
Boj-buxun əz jerində, quşlar qədər ajьqdьr
Səz joq ki, bizim gəlin bəjyk xana lajьqdьr.
Xanьmlьq halal qismət elə gəzəl bir çana!»
Sevindi həm Tiroxim, həm də zavallь Ganna,
—«Hajdь olsun siz dejən saq olun qocaqlarьm,
Mən də bu işdən indi bir nətiçə cьqarьm:
Өmrymyn bu vaqtьnda Marq murada ermәli,
Burda hər şejdən əvvəl toja qərar verməli».
Sonra qoça dyşyndy, bir ah cəkdi və dedi:
—«Bəs bu tojda analьq eləjəçək kim indi?

Oh, zavallь Nastja, dyşdym jaman gynlərə,
Cьqьb getdi, oƣlunu cьqarmadan bir jerə».
Ixtijarьn gɵzyndən sel kibi jaş boşandь.
Gɵz jaşlarilə andь, sevgili dostu andь,
Bu əsnada bir qadьn qapьnьn o yzyndə
Dajanmьşdь, dynjanьn ələmləri gɵzyndə,
Iştə bu gizli-gizli aƣlajan dərdli anna
Tezlikçə sezildi ki, bizim zavallь Ƣanna.
Hər şej susmuşdu, jalьnьz sьzlajьr işci qadьn:
—Kim analьq edəçək, anasь joqmu Marqьn?!

V

Iki gɵnyl birləşdi,
Daxmada nələr bişdi.
Kefləndi bizim qoça,
Ojnadь ysulluça.
Belə hoplajьb dyşdy,
Ajaƣilə jer eşdi.
Hər ɵtəri, kecəri
Caƣьrьldь icəri.
Verildi bytyn toja,
Myrəbbə doja-doja
Qьzlarьn qəhqəhəsi,
Tojdakь şənlik səsi
Gurultu və patьltь,
Doldurmuşdu həjəti,
Taqətdən dyşmyş qoça
Joruldu,. joruldugça,
Nə şarab gəldi o gyn!
Boşaldь kyplər bytyn.



Coq şejlər bişirildi,
Bişənlər dyşyryldy.
Ta səhərdən başlamьş,
Çanlanmьşdь evdə iş.
Lakin bu qonaqlarьn
Jabançьdьr çymləsi...
Hec biri dejil jaqьn...
Ƣannanьn gəlməz səsi.
O dalmamьş bu kejfə,
Nə yz vermişdir jenə?
Bir baş getmiş Kijevə
Vəlilərin qəbrinə.
Tojadək qalsьn dejə,
Coq jalvardь Tiroxim,
Marq and verdi hər şejə
—Məni qojma gəl jetim!
Coq jalvardь, olmadь
Qadьn toja qalmadь.

—Joq əzizim Marq məni sən gəl buraq da gedim,
Bu halьmla mən sənə nə çyr analьq edim.
Anan-baban zəngindir, mən jaraşmam adьna
Hər kəs gylər sonra, sən, salma məni jadьna.
Mən də dərdli başьmla zijarətə gedərəm.
Vəlilərin ɵnyndə sənə dua edərəm...
Sonra qismət olursa, dɵnərəm jenə geri,
Gələrəm jenə sizə, buraqsanьz icəri,
Qalьb jenə bu evdə, sizlər ilə jaşaram,
Ta nəfəsim var ikən ɵnyndə calьşaram.

*

Qanna yrəkdən Marqa xejr-dualar verdi
Darvazadan cьqaraq Kijevə yz cevirdi.

*

Qьzьşmьşdь qonaqlьq,
Ojnajan kim, calan kim.
Jorularaq calmaqdan,
Ojnamaqdan qalan kim.
Hər kəs jejib icməkdə,
Şadlьq devrə kecməkdə
Toplandь varlь, joqsul
Jemək jejildi bol-bol,

*

Işci qadьn bu zaman
Bitirmişdi jolunu,
Gəlmişdi uzaq joldan
Xarçlamьşdь pulunu.
Dərmədən nəfəsini
Bir xanьma qarabaş
Oldu ki, kisəsini,
Doldursun javaş-javaş.
Həm jeməgə, icməgə
Həm təvafa kecməgə,
Dost dyşməndən utandь,
Su daşьdь, qazandь.
Hamança puldan qocaq
Aldь Marqa bir papaq.



Tikdi bədnəzər daşь
Marqьn aqrьmaz başь..
Sonra gəlinə yzyk.
Aldь, etdi təbərryk.

*

Yz syrtərək son dəfə erənlər məzarьna
Işci qadьn jollandь jenə øz dijarьna.
Eşidincə qapьda onun titrək səsini,
Marq cьqdь istiqbala alaraq zevçəsini.
Xoş-beş etdikdən sonra icərijə aldьlar.
Joldan gəlmiş qadьna, təmiz syfrə saldьlar
Qadьn da jejib dojdu, jujunub sьqallandь,
Həm gəldikçə səhbət də dallandь, budaqlandь.
Geçə gəlib catьnça, kylfətin jatmaq caqь,
Qaterina sьcrajьb øzy sərdi jataqь,
—Bunlar məni sevirlər, bu hal nədəndir əçəb?
Bu sevgijə nə bilim, hansь sirr olmuş səbəb?..
Mən ki, coqdan boqmuşam yrəkdəki sьzьnь.
Joqsa nihajət bunlar tapdьlarmь izimi?..
Joq allah ejləməsin, istəməm, bilməsinlər,
Bilməsinlər mən kiməm, sьnьb əjilməsinlər..
Aldь ovuçlarьna dərdli qadьn başьnь,
Boşaltdь cajlar kibi, gøzlərinin jaşьnь.

## VI

Aradan kecdi yc qьş, yc dəfə cajlar dondu,
Yc dəfə gynəş cьqdь buzlarь qьrdь, jondu.

Ycyncy dəfə idi, o gezəl Qaterina
Cьqarmьşdь Qannanь Kijevin jollarьna,
Dərdyncy dəfə onu bir doqma ana qədər
Cьqarkən etyrməgə getdi qurqana qədər
Dənə-dənə həp rəca ejləjirdi qadьndan
Ki, tez dənsyn onlarь cьqarmasьn jadьndan,
Zira onlarьn evi qalьnca boş Qannasьz,
Cətin kecir onlarьn halь onsuz, annasьz.
Bir gyn pərhizdən sonra, bir jekşənbə
gyńyndə
Qoca oturmuş idi darvazьnьn enyndə.
Oturmuşdu Tiroxim, dərdlərini sajьrdь,
Bir oqlan nəvəsi də it ilə ojnajьrdь.
O janda, qadьnlьqa artdьqьndan həvəsi,
Qatjanьn dizlijini tapmьşdь qьz nəvəsi
Qьz dizligi gejərək gəldi coq vuqar ilə,
Gəryşdy qonaq kibi bizim ixtijar ilə.
Qoca gyldy yrəkdən bu evin şejtanьna,
Jetişmiş bir qьz kibi oturtdurdu janьna,
Sonra ondan sordu ki: «Hanь sənin əkməjin,
Sojdulamь meşədə, qьz xanьm tez səjləjin![1]»

Tam bu anda gəryndy
Qapьda işci qadьn
Qoca da nəvəsilə
Cьqdь ki, qarşьlasьn.



Sordu zavallь Qanna
—Səjləjin bir Marq nərdə?
O səfərdəmi hala?
— Əvət jenə səfərdə.
— Oh mən bəjyk zəhmətlə, syryndym, gəldim
sizə.
Artьq nedə bilərdim, gycsyzlyk cəkmyş dizə.
Mən əlmək istəmədim uzaq, jad əlkələrdə
Hec olmazsa gərəjdim əlməmiş Marqь bir də
Nədənsə fənalaşьr əhvalьm gyndən-gynə...
Bu səzlərindən sonra zavallь qadьn jenə ,
Başladь cantasьndan peşkəşlər cьqarmaja.
Əvvəl Marqьn qьzьna, o şejtan Arişaja
Cьqarьb muncuq və xac, bir də verdi bir qьzьl
Jaldьzlь bir təsvir də janьrdь parьl-parьl,
Sonra da Qarpa verdi bir bylbyllə iki at.
Bunlardan sonra etdi Qatrinaja iltifat,
Dərdyncy dəfə ona gətirmişdi bir yzyk,
Bu yzyk də myqəddəs Varvaradan təbərryk.
Ən sonra muzdur qadьn əl uzatdь cantaja,
Yc təbərryk şam verdi, coq sevdigi qocaja.
Bu dəfə muzdur qadьn nə Marqa, nə ezynə
Bir şej gətirməmişdi, həm gycsyzlyk gəzynə
Oturmuş, calьşmaja qalmamьşdь imkanь
Həm də ki, bu pulsuzluq utandьrьr insanь

—Hə, bir qalqьb baqajьm, zənn edərsəm
xurçunu
Dibindən dyşməmişsə bir kekə gərək olsun.
Bu sezlərindən sonra qalqdь jerindən qarь
Kekəji coçudlara belyb verdi tən jarь.

## VII

Gətirəçək Qaterina evinə qonaqьnь,
Cirməndi su gətirdi, jьqadь ajaqьnь,
Sonra jemək gətirdi, coq jalvardь «je!»—dejə
Lakin işci qadьnьn hec mejli joq jeməjə.
— Qaterina, baq, qьzьm, o biri gyn bazardьr.
Jemək-icmək istəməm, yrəkdə arzьm vardьr
Sonunçu dəfə bir də kəlisaja gedəlim
O myqəddəs Niqolaja ərz-y-nijaz edəlim
Hanь bizim bu Marq da, nə gəlib cьqmaz oldu,
Gezləməkdən jolunu, gezlərimiz joruldu.
Joqsa ki, xəstələndi, jollarda qaldь coçuq
Jol gezləmək coq aqьr, mənim də taqətim joq.

*

Bu sezlərindən sonra, qadьn səssiz aqladь.
Qoça, senyk gezlərdən, sellər, sular caqladь.
Cəkdiji əməklərdən çanь yzylmyş Qanna
Jerindən gyçlə qalqdь, çəfa basdь çanьna.
— Oh, gezymyn ьşьqь, sevgili Qaterina
Mən nə jaman qoçaldьm, bu tale'sizlik mənə



Nə zulumlar ejlədi, dizlərimdə joq dutar,
Zənn edərsəm jaqьnda axirətə səfər var.
Jerim doqru rahatdьr, dezmyşəm coq zylymə
Fəqət dezmək coq cətin jad evində elymə.
Bicarə baxtsьz Qanna, coq aqьr xəstələndi
Adam getdi keşişə, o da gəldi, hərcəndi,
Ovdular pijlə, lakin, jaxşьlaşmadь halь.
Anlaşьlan catmьşdь həjatьnьn zəvalь.
Qaterina kəsdirmişdi, xəstəsinin janьnь,
Onun ycyn çəfadan əsirgəməz çanьnь.
Gezlərin getyrməzdi qadьnьn gezlərindən,
Bir şej anlarmьş kibi, qarьşьq sezlərindən.
Sajьqlarkən əjilib dinlərdi geçə-gyndyz.
Uzaqlaşmaz xəstədən, oturub səssiz-kyjsyz.
Mykəddər dyşynyrdy; qoça celdə dolaşьr,
Geçələr damьn ystə hej bajquşlar ulaşьr,
Həm də xəstənin halь, hər gyn aqьrlaşьrdь.
Byryşykly alnьnda elymlər dolaşьrdь.
Qaterina saqlajьr gezlərinin jaşьnь,
Nə Qanna qaldьrьrdь jasdьqьndan başьnь,
Zavallь qərib qadьn nə jeməz, nə icməzdi.
Lakin Marqьn adь da dilindən hec dyşməzdi.
— Qaterina, allahcьn, sejlə nə oldu Marqa?
Mən eldym intizardan, jollara baqa-baqa,
Bir də gerə bilsəjdim elməz idim gezlərdim.
Başqa bir şej istəməm, Marqь germəkdir dər-
dim.

VIII

Karvan ilə barabar,
Marq qajqьsьz gəlirdi
Sьqmazdь onu səfər
Ojnajьrdь, gylyrdy.
Otarьr økyzyny
Hej oquja-oquja,
Jormazdь hec øzyny
Jatardь doja, doja.
Sevgili zevçəsinə
Peşkəş mahьt almьşdь.
Gørysyn nəş'əsinə,
Xəjalьna dalmьşdь.
Almьşdь bir al qurşaq
O ixtijar babaja,
Bir parca da jumuşaq
Baş ørtysy Qannaja.
Bundan başqa kənarь
Haşijəli bir dəsmal
Almьşdь, coçuqlarь
Jad etmişdi bu minval:
Onlara papuş, yzym
Alьb gəlirdi joldan.
Nə yzym: dyzym, dyzym,
Hamьcьn Istanbuldan,
Bir fucu gylgun şarab,
Bolça kyry Tunajdan



Gətirirdi; iztirab
Coq uzaq idi ondan.
Bir şybhə joq qəlbində, gønlyndə hec bir şejə,
Uzaq joldan gəlirdi, bajatь dejə, dejə..

Iştə gəldi cьqdь Marq,
Nihajət evlərinə.
Bismillah søjləjərək
Acdь qapьnь jenə
— Qatrija, qalq ajaqa
A Qatrija gəldi Marq,
Di çəld ol cьq qabaqa
Pişvaz ejlə, sonra baq,
Caqьr gəlsin janьma.
Şykr olsun allahьma,
Rəhmi gəldi çanьma...
Baqmadь gynahьma...
Sonra javaşça Qanna
Oqudu həmdy-səna
Həjətdə qoça baba
Marqьn økyzlərilə
Əlləşirkən, Qatrija
Jetişdi, gøzlərilə
Salamladь; Marq ondan
Soruşdu: «hanь Qanna?
Şybhələndim mən bundan
Bir şejmi olmuş ona?»
— Qorqma joqdur hec bir şej
Aqьr xəstədir: ançaq

Coqdan bəridir ki, hej
Əzbəri olmuş: Marq, Marq...
Jolunda coqdan bəri
Zavallьnьn gezləri.
Babaja ekyzləri.
Buraq da gəl icəri.

Icərijə girincə, Marqь hejrətlər aldь
Qannanьn əhvalьna baqьnca dondu qaldь.
Рьсьltilə: «coq şykyr»—səjlədi işci qadьn
«Qorqma əzizim, qorqma bir az daha gəl jaqьn.
Ilərі gəl, ilərі; sən də qьzьm Qatrusja
Sən cьq otaqdan bir az əgər zəhmət də olsa,
Bizi jalьnьz buraq, bir sezym vardьr Marqa
Bilirsən ki, joruldum jollara baqa, baqa!..».
Qatrina bu sezlərdən sonra cьqdь dьşarь.
Marq xəstəjə jaqlaşdь, əjildi ona sarь
— «Əzizim Marq jaqьn gəl, bir baq mənim halьma,
Gəryrsən ki, az qalmьş uqursuz zavalьma.
Bir baq bu jorqun, əzgin işci sandьqьn Qanna
Hər kəsdən coq adьnь, cəkib andьqьn Qanna
Sənin...».
Titrədi, susdu burda, bicarə qadьn birdən,
Marq isə aqlajaraq donub qaldьqь jerdən
Hərəkət edəmədi, qadьn jumdu gezyny,
Gez jaşlarь icində səjlədi son sezyny:
«Marq, baqma gynahьma, cəkmişəm çəzasьnь.
Gərmyşəm jalnьzlьqьn matəmini, jasьnь;



Baqma gəl gynahьma mənim səvgili oqlum.
Əfv ejlə, anan ikən, dendym sənə jad oldum....!»
Zavallь Marq eşitdi bu mydhiş sirri şaşdь.
Ajaqьnьn altьndan elə bil jerlər qacdь.
Marq hənkyryb qapandь, Qannanьn sinəsinə.
Əlym fatihə verdi qadьnьn nəfəsinə.

## QAFQAS

*JAQOV-DE-BALMENƏ*[1]

Daqlarьn ardьnda dumanlь daqlar,
Baqьn o daqlarda gөryn nələr var.
Onlarьn topraqь dərdlə əkilmiş,
Ora su jerinə qanlar cəkilmiş.
Əsrlər bojunca bir qara qartal,
Promete[2] ycyn kəsilmiş məlal,
Dutub yrəgini parcalamaqda,
Hər iki bөjryny dьrmalamaqda.
Hər gyn parcalajьr onun canьnь
Icməjir lakin saqlam qanьnь.

---

[1] Şevcenqonun bu şeiri ithaf etdiji Jaqov-de-Balmen fransьz nəslinə mənsub bir uqrajnalьdьr, Şevcenqonun jaqьn dostu idi, qafqasda cərkəslərlə vuruşmada өlmyşdyr.

[2] Promete—əsatiri bir qəhrəmandьr, guja həqiqət və hikmət məş'əli olan odu gөjdən oqruladьqь ycyn Qafqas daqlarьndan birisinə mьxlanmьş imiş və bu qartal onun gөjsyny didirmiş.



Өzyndə bir qyvvət hiss eləjərək
Jenidən sevinir, gylyr gənc yrək,
Өləməz haqqьmьz həqiqətimiz,
Gөmylməz topraqa hyrrijjətimiz.
Dəniz diblərində dar yrəklilər
Syrə bilərlərmi tarlanь məgər.
Canlь sөz, canlь ruh boqula bilməz.
Allahьn şərəfi əksilə bilməz.
Jarəbbi səninlə bəhsə girişmək
Gycymyzdən kənar iş olsa gərək.
Səni myhakəmə etmək xətadьr.
Bizə gөz jaşlarь lytfy-ətadьr.
Olsa-olsa bizə təsəlli ancaq,
Aqlamaq, aqlamaq, jenə aqlamaq.
Jejilən cөrəgin xamьrьnь biz,
Qanla, tərlə, jaşla joqurmaqdajьz.
Gylməkdədir bizə hər qanlь cəllad,
Sərxoş haqqьmьzsa ujujur rahat.
Bəs o haq nə zaman ojanacaqdьr?
Ej joqun allahьm, өzyny qandьr?
Sən hacan dynjadan sojujacaqsan?
Rahatlanmaq ycyn ujujacaqsan?
Calьş hər qyssədən azad olalьm.
Imkan ver dojunca nəfəs alalьm.
Sənin qydrətini sөjlə kim danar.
Bizim canlь sөzə inamьmьz var:
Azadlьq doqacaq, doqacaqdьr haq,
Sənə doqru bytyn ellər qoşacaq,

Əsrlərçə sənə baş əjəçəklər,
Hyzurunda sənin jaş təkəçəklər,
Hələlik caqlajьr, sellər caqlajьr,
Sellərdə janьqlь dillər caqlajьr.

*

Daqlarьn ardьnda dumanlь daqlar,
Baqьn o daqlarda gəryn nələr var!
Onlarьn topraqь dərdlə əkilmiş,
Su jerinə ora qanlar cəkilmiş,
Bizim «yrək acan şəfqətimizlə»,
Sizdəki hyrijjət sovruldu jelə.
Belində jataqan, cijnində silah
Θlənlər az dejil onun uqrunda.
Bol-bol aqan qanlar, bu gəz jaşlarь
Kafidir boqmaqa mystəbid carь.
Θjsyz qadьnlarьn gəz jaşlarьnь,
Geçələr təkylən qьz jaşlarьnь
Hədsiz hesabsьzdьr sajmaq olurmu?
Belə zulmu jerdə qojmaq olurmu?
Validejnimizin yzyndəkilər
Bunlardan qьzqьndьr, bunlardan betər
Jaşlardan jaranmьş, inan, dənizlər
Dutuşan dənizlər, janan dənizlər.

*

Alqьş, alqьş sizə—iş gərənlərə,
Bizə çevry-çəfa cəkdirənlərə,



Bizim kəpəklərə, bizim sarlara [1]
Bizim babalara, bizim carlara,
Alqьş, alqьş sizə ej uça daqlar,
Başlarь aqarmьş ej qoça daqlar.
Tanrь tərəfindən unudulmajan
Bəjyk ijitlərə [2] şərəf və is'an.
Carpьşьn—siz qalib gələçəksiniz,
Tanrь jardьmilə gyləçəksiniz.
Qvvvət, qalibijjət arqanьzdadьr.
Haq ilə, hyrijjət arqanьzdadьr!

*

«Qolbalar, cərəklər hər şej sənindir.
Bunlarь həp sənə jaradan verir.
Əlindən alamaz onlarь kimsə,
Kimsə zənçirləjib salamaz həbsə.
Istər zəngin olsun, istərsə cьplaq,
Allah kəlamьna gəstərib maraq,
Bir səslə oquruz kəlami-rəbbi,
Zindandan səriri-devlətə kibi.

*

Sizə əjrədəriz əgər istəsək
Nərdən nə qijmətlə alьnьr cərək.

[1] Şair açь-açь gylərək carьn insanlarь itlər kibi myharəbəjə syryklənməsini gəstərmək istəjir.

[2] Şair bunada azadlьq ystyndə mybarəzə aparan qafqas xalqlarьna işarə edir.

Biz xristijanьz: şanlь mə'bədlər,
Bizimdir min dyrly nazy-ne'mətlər
Hətta, bizimkidir tanrьnьn øzy
Daxmalar deşmədə gøzlərimizi,
Nə ycyn sizlərdə onlar var dejə
Øz cørəgimizi aç bir køpəjə
Atdьqьmьz kibi nə ycyn sizə,
Sizə atmajьrьz bir bilsənizə.
Nicin gynəş sizi ьşьqladьrkən
Vergi almajьrьz bununcyn sizdən?

Bizə lazьm dejil zijadə şejlər,
Bizə aldьqьmьz kifajət ejlər.
Biz øz-øzymyzy myqəddəs bilib,
Həzrəti-Isaja olmuşuz talib.

Coq şejlər øjrədə bilərdik sizə
Jaqьn olsajdьnьz azaçьq bizə.
Bizdə nihajətsiz bir Sibirja var.
Ølkəni byrymyş həbsxanalar.
Moldavalьlardan ta finlərədək [1]
Bir coq dillər susurlar orda demək
Ərzi-ybudijjət edirlər onlar,
Diz cøkyb səçdəjə gedirlər onlar!

*

Myqəddəs inçili oqujaraq biz,
Sonra əzbərləjib zikr etməkdəjiz.

[1] Şair burada Bessarabjadan Finlanda qədər geniş Rusja ølkəsini gøstərmək istəjir.



Myqəddəs kitablar edir hekajət:
Hansь bir car isə bir kərrə xəlvət,
Gøjcək arvadьnь, sevmiş dostunun,
Øldyrmyş, arvadьn almьşdьr onun [1]
Baq bizim gøjlərdə neçə qanunlar
Əzəldən bəridir olmuş bər-qərar.
Sizsə qaranlьqda syrynyrsynyz,
Sizə nur sacmamьş təmiz xac hənuz.
Sizin gøzynyzy acmalьjьz biz,
Belə çəhalətdən qacmalьjьz biz.
«Dərin sojulunça nejin varsa ver!»
— Bizim bu şiara elə sən əməl,
Dərhal hazьr olar çənnətdə bir jer,
Orda kylfətin də gətməz bir əngəl.

*

Kim dejir ki, hec nə bilməjirik biz?
Ulduzlarь sajьr, darь əkiriz.
Olsa-olmasa da əgər ujarь,
Daima søjyryz fransьzlarь,
Qara qullar dejil, sadə insanlar,
Bojnuna xac taqan xristijanlar
Zorla satьlmada bizim bazarda,
Bə'zən uduzulur qьzqьn qumarda.
Jarəbbi, dejiliz biz ispanjalь,
Çuhudtək alalьm oqurluq malь

[1] Davud pejqəmbərin arvadьna sahib olmaq ycyn — øz əskəri Urijanьn qətlinə əmr vermiş olduquna işarədir.

Buraq hər tərəfə jajьlsьn ki, biz,
Hər şeji qanunla gərənlərdəniz».

*

Pejqəmbər bir gəzdə gərmyşdy sizi
Siz bir-birinizi sevirsinizmi?
Fitnəkar, rijakar, alcaq, bəd əsil,
Allahdan lə'nətlər qazanmьş nəsil!
Saqlam çanь, dejil, qardaşьnьzьn,
Dərisi lazьmdьr sizə anlajьn,
Iştə bu dərini qardaşьnьzdan
Sojub qanun ilə hər gyn hər zaman
Paltar tikmədəsiz qьzlarьnьza,
Baxşьş alьrsьnьz arvadьnьza,
Ajilədən gizli saqladьqьnьz
Bahalь şej-şyjlər sizindir jalьnьz.

*

Sən ej tanrь oqlu həzrəti-Isa,
Bəlaja qatlandьn kimin uqrunda?
Həqqy-həqiqətcin, jaxud bizimcin,
Ej allahьn oqlu, səjlə nə etdin?
Joqsa bu insanlar arqança gyldy?
Belə olaçaqdь, belə də oldu!
Kilsələr, mə'bədlər bir sьra şamlar,
Qatranlь, dumanlь dini kəlamlar,
Surətlər ənyndə andlar icirlər,
Tərli alьnlarla tə'zim edirlər,
Lakin sən bilməzsən bunlar necindir,
Bunlar oqurluqcun, qavqa ycyndyr.



Gəldik hyzuruna lytfən ver bizə.
Qardaş qanь təkmək ycyn içazə
Janqьn dyşən jerdən oqurlajьb biz
Kilsəjə ərmaqan gətirməkdəjiz.

*

Diləriz, əzymyz aqьllanьrkən
Allahьn nurilə sidqi-yrəkdən:
Aqьllansьn bir az başqalarь da,
Ьşьqsьz qalmasьn onlar arada.
Həqiqət gynəşin acьq aşkara
Gəstərmək istəriz kor coçuqlara,
Əvət biz hər şeji əjrədəçəgiz.
Bizə tabe olun, myti' olun siz.
Həbsxanalarьn tikilməsini,
Məhkəm zənçirlərin dəjylməsini,
Onlarьn nə sajaq syrylməsini
Baqlь qamcьlarьn ərylməsini,
Biz coq şej japarьz, razь olun siz,
Hələ coq şejlər də əjrənərsiniz
Lakin sizin ulu, doqma daqlarь,
Qojun əlinizdən alalьm barь.
Onsuz da dənizlər, cəllər alьnmьş
Indi də daqlara nəzər salьnmьş!

*

Səni də syrdylər, əziz Jaqovum.
Ej mənim səmimi jeganə dostum.

Sən dejil uqrunda Uqrainanьn,
Bəlkə ona qatь dyşmən olanьn
Jolunda haq sevən qьzьl qanьnь,
Aqьtdьn edərək fəda çanьnь.
Dyşmən badəsindən[1] zəhərlər icdin,
Hyrrijjət jolunda çanьndan kecdin.
Əbədi bir şərəf qazandьn sonda.
Θlməjən bir ruhla jyksəl jurdunda
Sahil bojlarьnda qanatlan, uçal,
Qazaqlarla birgə ucub qanat cal.
Dostum, vardьr jalnьz bir rəçam səndən,
Pərişan vətənin bəkcisi ol sən.
Qazaqlarla birgə gəz jaşlarь tək,
Zylmyn qalasьnь əllərinlə sək.
Mənim də gələçək qurtuluş caqьm,
Əsarətdən evə qajьdaçaqьm.

*

Hələlik ej mənim dyşynçələrim,
Mən sizi ətrafa sacmaq istərim.
Buraq tarlalarda hər gyn onlarь,
Oqşasьn gələçək bahar ruzgarь...
Uqrajnadan əsən sakit kyləklər,
Bu dyşyncələri sənə jetirər.
Dərdli dyşynçəmin əksilməz qəmi,
Sən də gəzlərində qardaş şəbnəmi,

[1] Əslində—«Mosqva badəsindən»dir.



Cьq bu dərdlərimin istiqbalьna,
Açь vətənimin jazьq halьna.
Qəbul et yrəkdən sən də bunlarь,
Cicəkli qьrlarь, uça daqlarь.
Əziz dost, xatьrla, məni jad elə,
Bu qəmgin gənlymy gyldyr, şad elə!

*Perejaslavl*
*18—XI—1845*

## VƏSIJJƏT[1]

Vəsijjətim budur: øldyjym zaman,
Məni dəfn ediniz Uqrajinada.
Bir uçsuz-buçaqsьz əngin səhrada
Məzarьm olsun qoj ьssьz bir qurqan.

*

Elə basdьrьn ki, gørə biləjim,
Sьldьrьm daqlarь, dyz ovalarь.
Həm coşqun Dneprə jaqьn olajьm,
Dujajьm ondakь uqultularь.

*

Daşqьn sellər kibi dyşman qanьnь
Mən aqan gørdykçə jerdən qalqarьm.
Azadlьq ver dejə bøjyk allaha
Dualar etdikçə artar vyqarьm.

*

[1] Bu şe'ri Şevcenqo aqьr xəstə ikən jazmьşdьr. Bu şeir məşhur Uqrajna bəstəkarь Lьjşenqo tərəfindən musiqijə salьndьqdan sonra ən məşhur bir şərqi olaraq oqunmaqdadьr.



Mən o gynə qədər, joqsa, allahь
Tanьmam. tanьmaq istəməm belə.
Qьrьb zənçirləri, o azadlьqь
Suvarьn nihajət dyşman qanilə.

*

Qurulan o azad, jeni dynjada,
Bøjyk ajilədə gələrək dilə,
Məni unutmajьn, siz salьn jada
Xejrxah søzlərlə, həzin søzlərlə.

*Perejaslavl*
*25—XII—1845*

***

. . . . . . x . . . . . . .

Biz coçuqluq zamanь bir evdə,
Bejymyşdyk onunla birlikdə.
Analarmьz baqьb sevinçlə həmin,
Bizə sejlərdilər: nişanlь, gəlin.
Lakin onlar dejən xəjal oldu,
Başlarьndan kecən myhal oldu.
Onlarь tərk edinçə topraqa biz,
Ajrьlьb hec gəryşmədik, biliniz.
Fələk hər səmtə cəkdi mən getdim,
Başqa bir jurdu ixtijar etdim.
Doqduqum kəndə gəlməgimsə mənə
Ixtijarlьqda qismət oldu jenə.
Qajьdarkən başьm aqarmьşdь,
Sankь emrym tamama varmьşdь.
Xarab olmuş mənim kibi artьq,
Dyşynyrdym, bulunduqum komaçьq,
Kimsəsiz, kəlgəsiz qalьb cəkmyş,
Almьş ən sonra bir həzin gerynyş.
Mənə lakin o kənt geryndy neçə?
Neçə germyşdy gezlərim ençə,
Orda bir başqa şəkl alan joqdu,
Jyksələn joqdu, məhv olan joqdu.



Gərdygym tarla, gərdygym orman...
Bir şej əksilməmişdi hec buradan
Baş uçundan səjut əsarətlə,
Gələrək inçə dallarilə dilə,
Ona tə'zim edərdi, titrərdi,
Ona ahəstə ninni səjlərdi.

Gərdygym gəlçygəz və kəpryçygəz:
Jaşapьrlar cьqarmadan bir səs
Baq-odur nazənin dəjirman da,
Ormanьn qujtu bir kənarьnda.
Baq dəşyndə jaşьl palьt da durur,
Gənç qazaqdьr, o sankь pək məqrur.
Gəryrəm orda qujtu bir jamaçь,
Gəryrəm orda aq gilas aqaçь
Ki, onun kəlgəsində, çənnətdə
Validejnimsə xabi-rahətdə,
Cəkərək bysbytyn zavallь məzar,
Xac qьrьlmьş, oqunmajьr jazьlar.
Qoj mənim çan çijərlərim əjlə,
Ujusunlar da istirahətlə.

*

Bizim Oqsana saqmь, səjlə bana?—
Sorarьm mən javaşça qardaşьma.
—Hansь?

—Daim bizimlə bir jerdə
Jaşajan qьz, o çanlь qьz nerdə?
Nijə qardaş əjib, gərib başьnь,
Silijorsun əlinlə gəz jaşьnь?

—Hec.
— Əvət yz verib qərib bir hal
Onu saldatlar etdilər iqfal[1],
Sonra onlarla ejləjib də səfər,
Orda qejb oldu sorduqun dilbər.
Kecdi bir il, qajьtdь, pək doqru,
Vardь qojnunda bir kicik coçuqu
Qьzьm Oqsana doqrudur dөndy:
Lakin indi o xejli kyskyndy.

*

Cьqьb ətrafa kimsəsiz geçələr,
Yz-gөzyndən jaqardь bilməçələr.
Dalьb afaqi sejrə başlarkan,
Ona həmdəm gөzyndə jaşlarkan?
Oturub qarşьsьnda bir cəpərin,
Bir kicik quş qədər həzin, qəmgin,
Gah oqur, gah gəzər, gah aqlardь,
Hər nigahьnda başqa sir vardь.
Sonra birdən joq oldu getdi o qьz
Doqrudan başqa bir mələkdi o qьz.
Nə jazьq, bəllidir bөjyk jaradan
Ona baxş etməmiş səadət inan.
Bəlkə etmişdi, bilməm hansь dəni,
Calaraq qacdь, getdi, taleini.

*Qis-Aral 1849.*

[1] Iqfal etmək—aldatmaq, joldan cьqarmaq



## DYŞYNÇƏLƏRIM

Ej dyşynçələrim, dyşynçələrim,
Sizin yzynyzdən artdь kədərim.
Nicin bu kaqьzьn yzərində siz,
Dutqun sьralarla dizilmişsiniz?
Ja sizi cөllərin tozlarь qədər
Nicin daqьtmajьr əsən bu jellər?
Doqma bir qьz kibi, sөjləjin nicin.
Qaplamajьr sizi qujtu bir hyzyn?
Dynjada bulunan açь balalar
Sizi istlehzacьn jaranmьş məgər?
Sizi-gөz jaşlarьm suvardь jalnьz,
Nədən bu jaşlarda boqulmadьnьz?
Sizi aparmadь nicin dənizə,
Nicin jurd olmadь tarlalar sizə?
Bilmədiniz, qara baxtьmь nicin
Qalqьb etmədijim şiddətlə təl'in?
Unudurkan məni bytyn insanlar
Mən də hər qyssədən olurdum kənar
—Cara joq... dejərək istehza ilə
Dyşməzdim nihajət dillərdən dilə

*

Ej dyşynçələrim, dyşynçələrim,
Qəlbimə ən jaqьn aşinalərim!
Bilməm nədən sizi sevib oqşadьm,
Sizinlə bir uzun ømyr jaşadьm.
Sizin arqanьzça dynjada ançaq,
Ançaq məndən başqa kim aqlajaçaq?

*

Ej dyşynçələrim, dyşynçələrim,
Əziz javrьlarьm—øjlənçələrim,
Bəlkə qara qaşlь gøzlər bulunar
Açь jaşlar tøkyb sizincin janar.
Mən coq gøz jaşlarь istəməm əvət,
Mənə bir damlasь edər kifajət.
Bøjyklərdən bøjyk olaçaqьm mər
Iştə budur mənə təsəlli verən.

*

Ej dyşynçələrim, dyşynçələrim,
Sizinlə jaşamaq çətindir, derim.
Edirsiniz elə bir səmtə fərar,
Ki, orada qara qaşlь gøzlər var.
Sizin arqanьzça yrəjim belə
Qoşmada bir uzun iztirab ilə,
Iştə dyşynçələr... çanlandьrmada
Qarşьmda gəzdirib dolandьrmada
Baçardьqь qədər bildiklərimi
Kecmişdə jaşajьb gørdyklərimi.



*

Qaranlьq, kølgəli vişnə baqlarь,
Dəniz kibi geçə... sevgi caqlarь.
Atəşli qьzlarьn oqşajьşlarь,
Sevdalь bir ømryn jaşajьşlarь.
O şəvətək qaşlar, o qara gøzlər,
Dərələr, təpələr, səhralar, dyzlər,
Tənha məzarlьqlar dyşmədə jada
Həpsi orda, həpsi Uqrainada.
Lakin urəkçigim anlamam nədən
Bir søz søjləməjir qyrbət ellərdən.
O istəməjir ki. qarlь səhrada,
Əsalar, tuqlarla qurulsun «rada»
Bərraq dyzlyklərdə, genişliklərdə,
O, uçsuz, buçaqsьz gørynən jerdə,
Sykuta uqrajan hyrrijjət qədər
Rahat-rahat ucsun zaporozlular.
O geniş Dnepr, sevimli çøllər.
Qorqunç astanalar, daqlar, qəbirlər
Orda qaplamьşdь tamam hər jeri,
Poljaq çəsədləri, tatar leşləri.
Xejli døjyşdykdən sonra orada,
Orda həpsi daldь sakit ujquja.
Kimisi məhv oldu, kimisi xəstə
Qəbirlər dikəldi hyrijjət ystə.
Məzarlar ystyndə nevbət çəkmədə,
Orada bir qara qartal indi də[1]

---

[1] Ikibaşlь qartal sabiq car rusjasьnьn armasьdьr.

Bir saz aşiqi də sarsъlmaz, vəqur,[1]
Azadlъq haqqъnda nəqmələr oqur.
Kecmiş haqqъndakъ nəqmələrinə
Jaşlar boşalmada sevinç jerinə.
Vergi verilmişdi allahdan ona,
Uqrajna ycyn jazъq, mən amma,
Aqlajaraq açъ jaşlar təkynçə,
Fəqət bilməjirəm səzlərlə neçə,
Acajъm dərdimi bu insanlara,
Açъ aləm nədir? jaşajanlara
Sorarъm ki, bunu bilməjən varmъ.
Joqsa bu dərdlərmi, bu açъlarmъ,
Bizə gəz jaşlarъ aqъtdъrmada?
Həssas qəlblilərə dari-dynjada
Daim aqъr kecən bu dərdli gynlər,
Olur çəhənnəmdən daha coq betər.
Nə qədər ki, məndə qyssələr vardъr
O qədər də tale' məndən kənardъr.
Gylənlərə isə gyləçəjim mən,
Dərdimi qəlbimlə bələçəjim mən.
Gərməsinlər dejə gəz jaşlarъmъ,
Dinlətməmək ycyn ahy-zarъmъ,
Həpsini sinəmə jъqaçaqam mən,
Şikajətlərimi boqaçaqam mən.
Braq dujqularъm qarqalar kibi
Ətyb ucuşsunlar cъlqъn, əsəbi...

[1] Vyqarlъ deməkdir.



Çoşqun bylbyl kibi yrəjim isə,
Azad dyşynçəmlə versin səs-səsə.
Ərtmədən çismimi qara topraqlar
Bu dolu gəzlərim, hər aqşam, səhər
Nə qədər qəlbimdə vardъr iqtidar
Dərdli jaşlarъnъ aqъtmaq istər.
Nə edəlim gəlmiş bizimki belə
Aqlasan da birdyr, aqlamasan da,
Bədbaxtlara çəfa çəkdirənlərlə
Divan qur, ej allah, sən bu jaqъnda.

*

Ej dyşynçələrim, dyşynçələrim,
Əziz javrъlarъm birçəçiklərim.
Harda sizə jer-jurd bulajъm, aja?
Gediniz, gediniz Uqrainaja.
Joqsullara həmdərd olun o jerdə,
Mənsə məhv olajъm jalъnъz bu jerdə.
Ej dyşynçələrim, zənnimçə orda
Bəlkə bulursunuz bir eşqi sevda,
Onda sevib sizi oqşajaçaqlar,
Sizinlə bir jerdə jaşajaçaqlar.
Həqiqət ordadur, getsəniz əgər,
Alqъşla sizləri təbrik edərlər.
Ej myqəddəs vətən, dujqularъmъ,
Iştə bu aqъlsъz javrъlarъmъ,
Doqma ana kibi sən də-əp, oqşa,
Onlarla bir sevgi həjatъ jaşa.

*Peterburq 1839*

## SAJЬRAM GYNLƏRI...[1]

Sajьram gynləri, aqşamlarь mən,
Saj-hesab cьqmadadьr fikrimdən.
Bu əsarətdə qьrьlmьş qəlbim
Nə bəlalar cəkəçək, ej rəbbim?
Illəri etmədə illər tə'qib
Bir jerə xejri, şəri çəm eləjib,
Səs-səmirsiz daşьjьrlar onlar
Dutmajьrlar dəxi bir jerdə qərar,
Və uzaqlьqlarь məskən edərək
Aqьr həp həpsi nəzərdən itərək.
Boş jerə etmə dua sən bu qədər!
Cynky etsən də qajьtmaz onlar.

*

Onlarьn hər biri otlaqlarda,
Quru jerlərdə, bataqlьqlarda,
Yc il aqmьş bir uzun matəmlə
Daxmamьzdan nə kecirmişsən ələ,

[1] bu parcanь Şevcenqo syrgyndə olduqu zaman jazmьşdьr.



Gizli ymmanlara ithaf etmiş
Onlarь indi dəniz gizlətmiş.
Dejil ançaq gørynən devlətimi,
Ɵmrymy, dərdimi, ylvijjətimi
Bir gørynməz qələm hər gyn qədərin
Gizli tarixinə daxil eləjir.
Bu gediş qəlbimi gizlinçə jejir.
Indi dyz dørt il olar mən daim
Iztirablarla xarab olmadajьm.
Mən bu dørdynçy olan dəftərimi.
Bitirib dəftərə cəkdiklərimi,
Bu əsarətdə gøzymdən təkylən
Qanlь jaşlarla jazьb cьzdьm mən.
Cəkdigim qəmləri mən hiçrətdə
Həp tərənnym elədim qyrbətdə.
Dejə bilməm bunu søzlərlə fəqət,
Burda insan belə azdьr, xəlvət—
Bir myhitdir ki, bulunmaz insan,
Rəbbi hətta arasan tapmazsan.
Hər tərəf lal və saqьr bir səhra,
Bir nəfər joq danьşьm mən hətta.
Jaşamaq istəjir insan ançaq,
Olmaz aləmdə kədərsiz jaşamaq.
Pəs necin bøjlə həjatьm syrynyr?
Ruhumu qəhr eləməkcinmi nədir?
Bu fikirlə jaşamam aləmdə,
Qorqmadan mən ølərəm ølsəm də..
Joq... mənim hər sitəmə, hər kədərə,
Sajsьz işkənçələrə, qyssələrə,

Bu dəmir qandala baqlanmaqьma,
Qatь əllərlə boqazlanmaqьma,
Varsa bir ymdə səbəb iştə budur.
Doqduqum jurda dənyş arzьsьdьr.

*

Bəlkə mən ejləjərək razy-nijaz,
O jaşьllьqla, palьtlьqla bir az.
Gəzlərimdən sacьlan qətrələri
Bələrim hyznlə gəldikçə jeri...

*

Mənim Uqrajnada joq bir kimsəm,
Mənə onlar daha jaddur dersəm.
Olamaz zərrəçə fikrimdə xəta,
Bu Dneprdə gəzib-tək tənha
O sevinçlərlə daşan kəntlərdə,
Dolaşьb mən də olan hər dərdə—
Qəmli səzlərlə nihajət verərim
Fikrimi əjlə tərənnym edərim.
Dəjynyb сьrpьnьr həp baq, qəlbim.
Məni bir az da jaşat ej rəbbim.
Gərəjim bəlkə o mə'valarь mən.
O mazarlьqlarь, səhralarь mən.
Mənə artьq jaşamaq ixtijarь,
Verməjirsənsə əgər ej tanrь,
Bari gəz jaşlarьmь ver oraja,
Onun uqrunda bilirsən, allah,
Mən bu qyrbətdə nə qəmlər çəkdim,
Nə bəlalər, nə sitəmlər çəkdim?!



Doqduqum sevgili dyzlərdə əgər,
Məni bir dəf'ə də jad ejləsələr,
Bu əsarətdə mənimcin jatmaq,
Dinlə ej tanrь rahatlьq olaçaq.
Bunu jap, jaxud, amandur rəbbim,
Bir umud ver də sevinsin qəlbim.
Mən ki, hec bir şejə qadir dejilim,
Bu əsarətdə bu qyrbətdə əlim,
Catamaz hec şejə, əlsəm də belə.
Məni anmaz bir adam qəlbilə.
Mən əlyrsəm ələçək dujqularьm,
Topraqa dəfn olaçaq arzьlarьm.
Doqma jurdum, mən əlyrsəm ançaq,
Bu əlymdən ki, xəbər dutmajaçaq.
Bəlkə illər keçəçəkdir, tanrьm.
Açь jaşlarda yzən dujqularьm,
Doqma jurdumda nihajət jetişər.
Jerə şəbnəm kibi bir ləhzə dyşər.
Çanlь bir qəlbi jujarlar sonra
Tөkylən qəmli həzin jaşlarla.
O jazьq qəlblə həsrət çəkəriz
Aqlarьz, sel kibi jaşlar təkəriz.
Ah, o minnətzədə qəlb bəlkə də hər,
Dua ystyndə mənim adьmь çəkər.
Nə olur, olsa asьlmaq da əgər,
Qələmim işləjəçək şamy-səhər.

*Orenburq 1850*

# DUALAR

## I

Ulu tanrьm, qan ıcən carlara sən,
Lytf edib bollu qьzьl pullar ver,
Onlara ver də aqьr zənçirlər

*

Bu oqurlanmьş olan əlkədəki
Calьşan əllərə gestər himmət
Onlara ez gyçyny irsal et.

*

Bir duam varsa hyzurunda əgər,
Iştə: dynjada fəqət, ej rəbbim,
Səjlə eşqilə dejynsyn qəlbim.

*Peterburq*

*24—V—1860*

## II

Qanlь çəlladlara bir gez gəzdir,
Daima onlarь dut zənçirlə
Gem məzarlьqlara tədbirinlə.

*



Daima işcilərin qəsb edilən
Açь jaşlar tekylən jurdunda
Onlara ez gyçyny ejlə əta.

*

Ləkəsiz, haqqa tapan qəlblər ycyn
Mehriban ruhlu mələklər gendər,
O bejyk saflьqь hifz etsinlər.

*

Mənə lakin, ulu tanrьm, jalьnьz,
Jardьm et haqqь sevib oqşajajьm,
Mehriban dostlara həmrah olajьm.

*25—V—1860*

## III

Zulumkar kəsləri uslandьraraq
Qatь zənçirlərə məhkum etmə,
Gomərək topraqa mə'dum etmə.

*

Xejirxah əlləri qyvvətləndir,
Onlarьn jardьm edib işlərinə,
Qydsi hekmynlə təravətləndir

*

Ləkəsiz qəlblərə bəs? onlara da
Mehriban ruhlu mələklər gendər
O bejyk saflьqь hifz etsinlər.

Bizi bir dujquja sevq etmək ycyn
Bizə dynjada yxyvvət, sevda,
Bir də şən çənnətini ejlə əta!

*27—V—1860*

IV

Nəş'ələr zəmzəmələr, təntənələr,
Gəmilər, tərli kotanlar, jer-jer.
Gəzy aç, qəlbi sojuq şahlar ycyn

*

O rəzil dujqusuz allahlar ycyn
Işləjən qollar, aqыllar, lakin,
Daimi joldaşь olsun əməgin.
Syrərək tarlanь, məhsul jerini
Ta ki, bicsinlər əz əkdiklərini.

*

Ej jerin həm də gəjyn xaliqi, sən,
Bir kicik hissə ajьr lytfyndən,
Saf yrəkli, təmiz insanlar ycyn
Çənnətində jer ajьr onlar ycyn

*

Bizə joq, carlara ver!
Qart kotanlar, gəmilər, ne'mətlər,
Həpsi qoj onlarьn olsun, amma,
Bizə bəxş ejlə məhbbət, sevda.

*Peterburq*
*31—V—1860*



Pək doqrudur jatanlara cəkdirməzlər əzijjət
Lakin rahat ujumaqa buraqьlmaz hər alcaq.
Ej dişi it[1] sənə, lakin, nihajət.
Dejil biz,
Dejil bizim nəvəmiz.
Bytyn dynja lə'nətlər jaqdьraçaq.
Daq cəkərək janьndakь kycyklərin gəj -
synə,
Bytyn çahan typyrəçək onlarьn da yzynə.
Siz ej mənim ələmlərim,
Əzablarьm, qəmlərim,
Siz nə zaman sənyb bitəçəksiniz?
Məndən uzaqlaşьb gedəçəksiniz?
Joqsa carlar kəndi nazirlərilə,
Sizi didmək ycyn verib əl-ələ
Ətrafda nə qədər murdar kəpək var

---

[1] Bu şeir I Niqolajьn dul arvadь Marjanьn əlməsi mynasəbətilə jazьlmьşdьr. Indijə qədər bunun II Jeqaterina haqqьnda jazьldьqь gyman olunurdu.

Sizin ystynyzə qьsqьrdaçaqlar.
—Xajьr, didəməzlər.
Cynky insanlar,
Haqqьnь dyşynyr, haqqьnь anlar:
Kimsəjə vermədən zəhmət, əzijjət,
Carьn axьrьna cьqarlar əlbət.

*Peterburq*
*20—X—150*



*

Ej aqalar, insanlarь qaplajan
Fəlakəti bilsəjdiniz, o zaman
Mərsijəni atardьnьz kənara,
Rəbbi tə'rif etməzdiniz nahaqdan,
Gylməzdiniz təkdygymyz jaşlara.
Bilməjirəm neçə olur iraqdan,
Meşədəki daxmaçьqa, izbəjə.
Verirsiniz çənnət adь siz nejə?
O qylbədə mən zillətlə bəjydym,
Geçə-gyndyz gəz jaşlarь təkdyjym
O daxmada qəmlər jaşar jьqьnla.
Min bir bəla həkym syrmyş daxmada.

*

O kicik daxmaja derlər çənnət,
Ona çənnət deməŗəm mənsə fəqət,
O mykəddər gəlyn ərafьnda,
Doqduqum jerdə, o joqsul komada
Dejilən çənnəti əsla bulamam
Məni baq orda doqurmuşdur anam.
Açь qəmlər aqьdьb səzlərinə,
Qəlbimin işlədi hər bir jerinə.

Mən o çənnətdə çəhənnəm gərdym.
Açьdan doqma bir aləm gərdym,
Ehtijaç, zylmy əsarət, məhlik
Aqьr işlər, qara tale'sizlik,
Qojmajьr ejləjim bəlkə dua.
Bilirəm annamь bir gyn orada
Bir cuqur topraqa dəfn ejlədilər.
Cəkdigicin anamьz rənçy-kədər:
Kysdy bir gyn ona zalьm dynja,
Onu daldьrdь dərin bir qujuja.
Atamьz əldy syryndyk nacar,
Onu məhv ejlədi, əldyrdy bijar.
Dəzərək talein işkənçəsinə.
Əmrynyn cьqdь o son zirvəsinə
Baş əjib də həjat qajqьsьna.
Bənzədik tibqi sican javrьsьna.
Daxmamьz axьrь bom-boş qaldь.
Aman allah, o nə kysgyn haldь?!
Vagtьmьz kecmədi bihudə jerə
«Su daşьrsьn dejə məktəblilərə»
Məni də məktəbə vermişlərdi.
Bijara gyndə gedər, işlərdi
Dərdli qardaşlarьm, onlar, hejhat,
Baqdьq ən sonda alьnmьş saldat.

*

Ah gəjərcinlərim, həmşirələrim,
Sizi andьqça sьzьldar çijərim,
Siz jazьqlar məni agah ediniz,
Hansь ymmidlə syrynməkdəsiniz



Başqa evlərdə sizin şamy-səhər
Əmrynyz ellərə baqmaqla kecər.
Ətdy xoş gynləriniz dərdlərlə,
Iztirablarla, mysibətlərlə. . .
Yzynyz gylməjəçəkdir bişək,
Bu məişət sizi məhv ejləjəçək.

*

Kəj kənarьnda olan daxmamьzь
Jada saldьqça, bir atəşli sьzь,
Bir ələm dəhşəti qaplar çanьmь,
Qap-qaranlьq gəryrəm dərt janьmь.
Baq, ej allah, bu gəzəl çənnətdə
Belə işlər gəryryz, əlbəttə
Ki, sənin qydsi olan topraqьnь
Jə'ni topraq denilən ucmaqьnь[1]
Adəm evladь çəhənnəm etmiş,
Ejşini kəndinə matəm etmiş,
Dyşmyşyk indi bəjyk bir dərdə
Arajьb çənnəti biz gəjlərdə.
Açь jaşlar təkyb aqlaşmadajьz,
Tarladan tarlaja jol acmadajьz.
Başqa şejlər dəxi vardьr bəlkə
Biləməm hər şeji mən bilməm ki,
Elə zənn etmədəjim, sən varsьn,
Hər şeji sən daha tez anlarsьn.
Olmasajdь sənin həkmyn mytləq
Olamazdьq bu qədər aç, cьplaq

---

[1] Usmaq—çənnət mə'nasьnda işlənmişdir.

Bəlkə, allahьm, ezyn gəjlərdən
Baqaraq gylmədəsən bizlərə sən.
Aqalarla jьqьşьb bir araja
Məsləhətləşmədəsən onlarla
Dari-dynjanь dolandьrmaqcьn,
Iştə baq sizdə ojandьrmaqcьn
Təzə bir dujqu o zymryd təpədə
Meşə olduqça jeşillənməkdə,
Meşə ardьnda gymyş bir gel var
Gezə hətta pək uzaqdan carpar
Gelyn ystyndə sejytlər rakid
Suja əks etmədə sakit-sakit
Burasь aləmi-ylvijjətdir.
Sankь başdan-başa bir çənnətdir.
Lakin orda nələr olmaqda bu gyn?
Nəzərin qoj dərin baqьb gersyn...
Nə səadət, nə səvinç, boş bir sez,
Burdakь zylmy, mysibətləri gez
Germəmək istər, aman,
Hər tərəf gez jaşь, qan...
Qalmamьş hermәti allahьn da
Ləkələnmiş cynky ibadətgahьn da;
Ej ilahi, əjilib bir mənə baq,
Belə zənn ejləjirəm mən ançaq:
Bu çamaat səni etmiş təl'in.
Sənə jaqdьrmada əl'an nifrin.

*Orenburq*
*1850*



*

Pocta Uqrajnadan coqdandur jenə,
Hec bir şej gətirmədi nədənsə mənə,
Işləmişəm dejə bejyk bir gynah
Məni çəzalandьrьr qəzəbli allah.
Bu çəza necindir—fərqi joq mənçə,
Məni məşqul etməjir belə dyşynçə.
Lakin qəlbim sevimli Uqrajnada
Nələr cəkdijini salaraq jada
Andьqça ələmli sərgyzəştini
Gənçliginin qəmli sərgyzəştini
Açь-açь aqlajьr, var idi dəmlər:
Mənə qyrbətdə qalmaq myjəssər oldu
Onlarsa, dostlarьmsa, həp unuduldu.
Biz belə javaş-javaş bir-birimizdən,
Ajrьldьq təəssyflə jaşlar tekmədən.
Mən bu qoça halьmda hər gyn hər geçə
Anmaqdajьm dostlarь baqьnьz neçə?
Xajьr-xajьr insanlar fənalaşmadь,
Ehtimal ki, dynjadan onlarьn adь
Silindi, silinməmiş olsajdь əgər!

Hec olmazsa bir kaƣьz gəndərərdilər.
Amansьz və uzun kədurətləmi,
Cəkdijim həsrətlə, açь dərtləmi,
Vətənimdən alьnan hər bir məktubun
Neçə oqunduƣunu gərməmək ycyn,
Belə kimsəsiz, jurdsuz bir halda daim
Sahillər bojunça dolaşmaqdajьm.
Azad dyşynçəmlə qanat acaraq
Doƣma Uqrajnaja qalqьb ucaraq,
Nəƣmələr oqurum, dinlər insanlar,
Bu nəƣmə onlara nəş'ələr sacar.
Bu nəƣmə varlьƣь tərənnym ejlər.
Dərdim sahil bojunça pьrьldar, əsər.

*Qos-Aral*
*1848*

М. Ф. АХУНДОВ адына
Азербайджан Республика
Умумий китабханасы
Инв. № 28353

Baş Mətbuat Mydirligi Myvakkilligi № 6631. Sifariş № 273. Tiraƶ 2000. İstehsalata verilmiş 10/IV-34. Capa imzalanmьş 2/V-34. Cap vəsli 2¾. Kaƣьz formatь 62X94. Azərnəşr mətbəəsində basьldь. 26-lar adьna „Kitab Sarajь“. Bakь, Əli Bajramov kycəsi.

2 m. 50 qəp.

Çildi 35 qəp qəp

ТАРАС ШЕВЧЕНКО

# КОБЗАРЬ

АЗЕРНЕШР
Баку — 1934